Aprelin 17-də Elm və Təhsil Nazirliyinin ( ETN) təşkilatçılığı ilə STEAM İnnovasiya Mərkəzində "Effektiv kommunikasiyanın qurulması ilə bağlı ictimaiyyətlə əlaqələrə məsul şəxslərlə görüş" keçirilib.

Görüşdə Elm və Təhsil Nazirliyi, Məktəbəqədər və Ümumi Təhsil üzrə Dövlət Agentliyi, Elm və Ali Təhsil üzrə Dövlət Agentliyi, Təhsildə Keyfiyyət Təminatı Agentliyi, Peşə Təhsili üzrə Dövlət Agentliyi, Təhsil İnstitutu, Təhsil Sisteminin İnformasiyalaşdırılması İdarəsi, Təhsil Tələbə Krediti Fondu, Təhsilin İnkişafı Fondu, Bakı şəhəri və regional təhsil idarələrinin, nazirlik tərəfindən həyata keçirilən innovativ layihələrin PR mütəxəssisləri, eləcə də "Azərbaycan nüəllimi" qəzeti və Təhsil TV-nin əməkdaşları iştirak ediblər.

Görüşdə salamlama nitqi ilə çıxış edən ETN-nin İctimaiyyətlə əlaqələr və kommunikasiya şöbəsinin müdiri Səbuhi Rzayev bildirib ki, görüşün əsas məqsədi nazirlik və onun tabeliyindəki qurumlarda ictimaiyyətlə əlaqələr sahəsində çalışan əməkdaşlar üçün qarşılıqlı fikir mübadiləsi imkanlarını genişləndirmək, mövcud çətinlikləri, gözləntiləri və gələcək planları vahid platformada müzakirə etməkdir.

Səbuhi Rzayev çıxışında qurumlar arasında əməkdaşlıq imkanları barədə məlumat verib. Əlavə edib ki, vahid yanaşma və qarşılıqlı əlaqənin qurulması xüsusi əhəmiyyət kəsb edir. Şöbə müdiri kommunikasiya fəaliyyətinin düzgün təşkili ilə bağlı mühüm məqamlara toxunaraq xüsusilə böhran kommunikasiyasının vacibliyini vurğulayıb. Səbuhi Rzayevin sözlərinə görə, düzgün qurulmuş kommunikasiya həm ictimaiyyətin məlumatlandırılması, həm də qurumun imicinin formalaşması baxımından strateji əhəmiyyət daşıyır.

Daha sonra elm və təhsil nazirinin müavini Firudin Qurbanov "Müasir dövrdə ictimaiyyətlə əlaqələr strukturlarının fəaliyyət istiqamətləri: məqsəd və vəzifələr" mövzusunda çıxış edib. Firudin Qurbanov qeyd edib ki, təhsil sahəsində aparılan islahatların cəmiyyətə düzgün və dolğun şəkildə çatdırılması üçün kommunikasiya işinin müasir yanaşmalara uyğun qurulması vacibdir. İctimaiyyətlə əlaqələr idarəetmənin mühüm funksiyasıdır və bu fəaliyyət təşkilatla ictimaiyyət, eləcə də əməkdaşlar arasında etibarlı münasibətlərin qurulmasına və qorunmasına xidmət edir.

Onun sözlərinə görə, müasir dövr sosial texnologiyalara və ictimai əlaqələrə yeni tələblər irəli sürür. Media vasitəsilə ictimai sabitliyi poza biləcək təsirlərə qarşı adekvat sosial texnologiyaların hazırlanması və tətbiqi olduqca vacibdir. Bu texnologiyalar həm ictimai münasibətlərin tənzimlənməsində, həm də informasiya təhlükəsizliyinin təminində mühüm rol oynayır. Nazir müavini əlavə edib ki, məqsəd nazirliyin informasiya mövqeyini daha da gücləndirməkdir. İctimaiyyət və media ilə dayanıqlı əlaqələrin qurulması, məlumatların düzgün toplanması və yayılması, media nümayəndələri ilə əməkdaşlığın genişləndirilməsi bu sahədə çalışan əməkdaşların əsas vəzifələrindəndir.

Firudin Qurbanov qeyd edib ki, peşəkar şəkildə hazırlanmış kommunikasiya konsepsiyası yalnız ictimaiyyətlə əlaqələr qurumlarının deyil, bütövlükdə elm və təhsil sisteminin uğurlarını şərtləndirə bilər. Konsepsiyada PR fəaliyyəti hər zaman strateji məqsədlərə yönəlməlidir.

Çıxış edən digər görüş iştirakçıları da öz fikirlərini və tövsiyələrini bölüşüblər.

Görüş ümumi müzakirələrlə başa çatıb.